

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 167 (24.054)

3 sentyabr 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində Səudiyyə Ərəbistanının investisiya naziri, Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falih ilə görüşüb.

Prezident İlham Əliyev sentyabrın 2-də Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinin müxbiri Roberto Boncorniyə müsahibə verib.

Sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində "The European House – Ambrosetti" beyin mərkəzi tərəfindən "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumu başlayıb. Prezident İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanın, İtaliya Nazirlər Şurasının sədri Mario Draqinin və "The European House – Ambrosetti" beyin mərkəzinin dəvəti ilə beynəlxalq forumda əsas qonaq qismində iştirak edib. Dövlətimizin başçısı forumun plenar iclasında "Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu" mövzusunda çıxış edib. Sonra Prezident İlham Əliyev xarici kütləvi informasiya vasitələrinin suallarını cavablandırıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına işgüzar səfəri sentyabrın 2-də başa çatıb.




# Naxçıvandan başlanan qurtuluş yolu



***"...Gərək hər bir rəhbər adam belə hesab etsin ki, onun borcu xalqının, öz torpağının, rəhbərlik etdiyi vilayətin, respublikanın müqəddəsliyinin keşiyində durmaqdır. Deməli, özünü bir kənara qoymalısan, öz şəxsi arzularından əl çəkməlisən, özünü, ancaq bu işə sərf etməlisən".*** 3 sentyabr 1991-ci ildə həm deputatların, həm də minlərlə muxtar respublika sakininin tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən ulu öndərimiz Heydər Əliyev məhz bu müdrik fikrinin işığında muxtar respublikanın ozamankı ağır vəziyyətində – soyuq iş otağında, çıraq işığında xalq və dövlət üçün çalışmağın, bu yolda fədakarlıq göstərməyin real nümunəsini yaratmış, müstəqilliyimizin təməl daşları həmin dövrdə Naxçıvanda qoyulmuşdur.

Böyük alman mütəfəkkiri İmmanuel Kant özünün fəlsəfi-hüquqi nəzəriyyələrində qeyd edir ki, *"Güclü dövlətin iki mühüm təminatı mövcuddur – xalq tərəfindən dəstəklənən mütərəqqi ideologiya və bu ideologiyanın daşıyıcısı olan xarizmatik lider".* Ümummilli liderimiz Heydər Əliyevin siyasi fəaliyyətində də bu iki amil vəhdət təşkil etmiş, Heydər Əliyev – xalq, xalq – Heydər Əliyev birliyi Azərbaycanı üzləşdiyi bəlalardan xilas etmiş, güclü və qüdrətli Azərbaycan Respublikası yaradılmışdır.

Ötən əsrin sonlarına doğru Sovet İttifaqının süquta uğraması ictimai-siyasi vəziyyəti ağırlaşdırmışdı. Həmin dövrdə cərəyan edən ölkədaxili və regional siyasi proseslər Azərbaycanı da uçurumun bir addımlığına gətirib çıxarmış, Ermənistanın ölkəmizə qarşı əsassız torpaq iddialarına rəvac vermişdi. Ölkədən təcrid olunmuş, blokada şəraitində yaşayan Naxçıvan isə taleyin ümidinə buraxılmışdı. Yaranmış vəziyyətdən istifadə edən Ermənistan siyasi və hərbi təzyiqlərini getdikcə artırırdı. Vəziyyətin bu qədər gərgin olmasına baxmayaraq, Naxçıvanda əhali bütün sahələrdə çətinliklərə müqavimət göstərir, muxtar respublikanın ərazi bütövlüyünü qorumaq üçün mərdliklə mübarizə aparırdı. Bu cür çətin, mürəkkəb və məsuliyyətli məqamda ulu öndərimiz Heydər Əliyev kimi böyük və zəngin həyat məktəbi keçmiş təcrübəli dövlət xadiminin Azərbaycana qayıdışı, 1990-cı il iyulun 22-də Naxçıvana gəlməsi, qısa bir müddət sonra – 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə 340 nömrəli Nehrəm Seçki Dairəsindən Azərbaycan parlamentinə, 2 nömrəli Seçki Dairəsindən isə Naxçıvan parlamentinə deputat seçilməsi xalq tərəfindən böyük sevinclə qarşılandı.

1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası da deputatların istəyi və böyük təkidi nəticəsində ümummilli lider Heydər Əliyevin sədrliyi ilə öz işinə başlamışdır. Həmin sessiyada Azərbaycanın müstəqilliyi və suverenliyi üçün böyük tarixi qərarlar qəbul edilmişdir. Belə ki, təcrübəli dövlət xadiminin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı 70 ildən sonra ilk dəfə Naxçıvanda qaldırılmış, Azərbaycanın Ali Soveti qarşısında bu bayrağın rəsmi dövlət bayrağı kimi təsdiq edilməsi üçün vəsatət irəli sürülmüşdür. Naxçıvanda milli dövlətçiliyimizin bərpası yönündə atılan addımlar bununla məhdudlaşmamış, 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendum boykot edilmişdir. Bütün bu proseslər onun göstəricisi idi ki, ulu öndərin qətiyyəti, hər şeydən üstün tutduğu milli dövlət maraqları, bu maraqların bərpası və qorunması istiqamətində atdığı tarixi addımlar müstəqilliyimizin bəhrələrini bizə hər gün daha da yaxınlaşdırırdı.

Dahi rəhbər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də xalqın tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi, ümumiyyətlə, Azərbaycan miqyasında böyük rəğbətlə qarşılanan əhəmiyyətli siyasi hadisə idi. Bu, Azərbaycan xalqının itməkdə olan ümidlərinin dirçəldilməsi, gələcəyə inamının artması baxımından da böyük dönüş idi. Xalqımız əmin idi ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bundan sonra daha heç vaxt düşmən caynağına keçə bilməz. Ümumiyyətlə, görkəmli dövlət xadimi ölkənin və xalqın ümid çırağı idi. Naxçıvanda yaşayıb-işlədiyi illərdə ümummilli lider Heydər Əliyevin iş otağında yanan çıraqdan bütün Azərbaycana işıq düşürdü.

***"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır",*** – deyən dahi şəxsiyyət Naxçıvan Muxtar Respublikasını erməni təcavüzündən xilas etmiş, blokada şəraitində gələcək inkişafın böyük təməllərini atmışdır.

Ümumiyyətlə, dahi rəhbərin siyasi fəaliyyətinin Naxçıvan dövrü nə qədər çətin və mürəkkəb bir zamana təsadüf etsə də, bu dövr Azərbaycanın müstəqillik tarixində çox böyük dəyərə malikdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların tarixi əhəmiyyətindən danışarkən demişdir: ***"Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edildi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi. Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi. O vaxt Naxçıvanda vəziyyət böyük çətinliklər hesabına sabit olaraq qalırdı. Ovaxtkı Azərbaycan rəhbərliyi də Naxçıvana ögey münasibət bəsləyirdi, heç bir yardım etmirdi, əksinə, Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi, müdrikliyini göstərərək ulu öndərin ətrafında bir yumruq kimi sıx birləşdilər və həm erməni işğalçılarına tutarlı cavab verdilər, onları yerinə oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir".***

Nəzərə alaq ki, ötən əsrin 90-cı illərində Naxçıvan ətraf aləmdən təkcə iqtisadi və sosial bağları qoparılmış bölgə deyildi. Həmçinin sərhədlərinin böyük bir hissəsi boyunca düşmən hücumlarının hədəfinə çevrilmiş bir Vətən parçası idi. Buna görə də Türk dünyasının böyük oğlu Ali Məclisin Sədri vəzifəsinin icrasına başlayandan cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında Qərar qəbul etmişdir. Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım oldu. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanılması təmin olunmuşdur. Əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və ulu öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada ilk milli ordu birləşmələri yaradılmış, Naxçıvanın müdafiə potensialı yaxşılaşdırılmış, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası məhz Naxçıvanda qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrü barədə demişdir: ***"Tale ulu öndəri bu regiona göndərməklə Naxçıvanı işğal olunmaq, əhalisini isə qaçqın ömrü yaşamaq təhlükəsindən hifz etdi. Azərbaycanın bu qədim torpağını xilas edən ulu öndər özünə Naxçıvan boyda abidə ucaltdı. Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı..."***

Görkəmli dövlət xadiminin Ali Məclisin Sədri vəzifəsində işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi və 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarın qəbul edilməsi, bu mənada, xüsusi əhəmiyyətə malikdir. Mühüm geostrateji ərazidə yerləşən Naxçıvan Muxtar Respublikasının Türkiyə və İranla çoxəsrlik qonşuluq əlaqələrinin bərpası uzun illərdən sonra ilk dəfə ümummilli liderin Naxçıvanda fəaliyyət göstərdiyi dövrə təsadüf edir. Görkəmli dövlət xadimi 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərlər etmiş, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanmış, hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulmuşdur. Bunun nəticəsində qısa müddətdə Araz çayı üzərində "Ümid" körpüsü tikilib istifadəyə verilmiş, gömrük-keçid məntəqələri fəaliyyətə başlamışdır. Muxtar respublikanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də ümummilli liderimizin diqqət mərkəzində olmuşdur. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən

Ardı 2-ci səhifədə

"kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmiş, bu islahatlar aqrar bölmədə irəliləyişlərə səbəb olmuşdur.

1992-ci il noyabrın 21-də Naxçıvanda ölkəmizin ictimai-siyasi həyatı, ümumilikdə, isə müstəqil Azərbaycanın gələcəyi üçün mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının əsası qoyulmuşdur.

Xüsusilə vurğulanmalıdır ki, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda müstəqil dövlətçiliyin böyük məktəbinə çevrilmişdir. Bu elə bir məktəb idi ki, müstəqil Azərbaycanın dövlətçilik sisteminin konturları, gələcək inkişafın istiqamətləri məhz burada müəyyənləşdirilmişdir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda böyük işlər görülsə də, o dövrdə ölkədə hakimiyyətdə olanların bacarıqsızlığı, şəxsi maraqların milli maraqları üstələməsi Azərbaycanı daxildən parçalanmağa, məhv olmağa sürükləyirdi. Torpaqlarımızın ard-arda işğal olunması, yaranmış gərgin ictimai-siyasi hadisələr 1993-cü il iyun ayının əvvəllərində özünün son həddinə çatdı. Hakimiyyət böhranı bütün ölkəni cənginə aldı. Artıq Azərbaycan öz dövlət müstəqilliyini ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Vəziyyətin getdikcə ağırlaşdığını görən xalq yeganə ümid yeri kimi həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan ulu öndər Heydər Əliyevə üz tutdu. Dahi şəxsiyyət xalqın çağırışlarına cavab verərək 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, məhv olmaqdan xilas etdi. Bu hadisə Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. Həmin gündən etibarən ulu öndərin müdrik daxili və xarici siyasəti nəticəsində 1991-ci il sentyabrın 3-dən Naxçıvandan başlanan müstəqillik yolu ölkə miqyasında davam etdirildi. Beləliklə, tarix üçün qısa zaman ərzində Azərbaycan mühüm nailiyyətlər qazandı. Qısa müddətdə ölkədə baş alıb gedən hərcmərclik və anarxiya aradan qaldırıldı, qanunun aliliyi təmin olundu, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edildi, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırıldı. Sevindirici haldır ki, bu gün ulu öndərimizin siyasi xətti dövlət başçısı tərəfindən uğurla davam etdirilir, Azərbaycan gündən-günə inkişaf edir, beynəlxalq aləmdə mövqeyini daha da gücləndirir, yeni-yeni nailiyyətlərə imza atır.

Ölkəmizin ən böyük uğuru illərdir ki, işğal altında qalmış torpaqlarımızın 2020-ci ildə azad edilməsi oldu. Həmin ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsindən sonra qazandığımız Tarixi Qələbə həm də ***"Biz heç vaxt ərazimizin bir qarışını da belə heç kəsə verilməsinə razı olmayacağıq. İşğal olunmuş torpaqlarımız nəyin bahasına olursa-olsun, azad ediləcək, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunacaq"***, – deyən dahi şəxsiyyətin Azərbaycanla bağlı ən böyük arzusunun həyata keçdiyinin təsdiqi idi. Vətən müharibəsində Naxçıvandan olan hərbçilər də iştirak edərək şücaət, peşəkarlıq və vətənpərvərlik nümunəsi göstərdilər. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Naxçıvanlılar İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".***

Naxçıvan Muxtar Respublikası bu gün bütün Dövlət proqramlarının, infrastruktur layihələrinin uğurla həyata keçirilməsi sayəsində bir sıra mühüm göstəricilər üzrə iqtisadi təhlükəsizliyini təmin etmiş, mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmişdir. Son illər rayon mərkəzlərindən ucqar dağ kəndlərinədək hər yerdə aparılan genişmiqyaslı quruculuq işləri qədim Naxçıvanın hüsnünü daha da gözəlləşdirmiş, enerji, ərzaq və müdafiə təhlükəsizliyi təmin olunmuşdur. Həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycanın yeni tipli məktəblərə, səhiyyə ocaqlarına, yeni texnologiya ilə təchiz olunmuş sənaye müəssisələrinə, hər qarış torpağı əkilib-becərilən kənd təsərrüfatına malik inkişaf etmiş qabaqcıl diyarına çevrilmişdir. Ötən dövrdə müdafiə, ərzaq və enerji təhlükəsizliyinin təmin olunması sahəsində böyük işlər görülmüşdür. Kənd təsərrüfatı və xidmət sahələrində müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin fəaliyyətə başlaması, aqrar sənayenin inkişafının dəstəklənməsi Naxçıvanın ixrac potensialını artırmışdır. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi: ***"Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir".***

Bütün bunlar Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən Heydər Əliyev yolunun Naxçıvan reallıqlarıdır. Heydər Əliyev Günəşi, bütövlükdə, Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının böyük sabahlara gedən yollarına gur işıq salır.

**"Şərq qapısı"**

# Vətənimiz, milli dövlətçiliyimiz naminə birliyimiz sarsılmazdır

*Tarix sübut etmişdir ki, xalq öz milli ruhunu, mənəvi dəyərlərini, əxlaqi keyfiyyətlərini qoruyub yaşadanda, inkişaf etdirib gələcək nəsillərə çatdıranda böyük və qüdrətli olur. Qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı da hər zaman milli dəyərlərinə sadiq qalaraq bu dəyərləri əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Milli-mənəvi dəyərlərdən danışarkən xüsusi vurğu ilə qeyd olunmalıdır ki, bizim misilsiz mənəvi irsimiz olan Heydər Əliyev şəxsiyyəti bu anlayışla ayrılmaz surətdə bağlıdır.*



Milli dəyərlərimizin qorunması və inkişafı yaxın keçmişimizdə məhz ulu öndərimizin adı ilə bağlıdır. Ümummilli liderimizin siyasi fəaliyyətinin 1969-1982-ci illərini öyrəndikcə görürük ki, ulu öndər dilimizə, dinimizə, tariximizə, mədəniyyətimizə, musiqimizə, ədəbiyyatımıza məhz dövlətçilik mənafeləri baxımından yanaşmışdır. Onun məqsəd və məramı Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirməklə, xalqın milli dirçəlişi, milli şüurunun oyanışı ilə müstəqil dövlətimizi yaratmaq olmuşdur.

Ulu öndərimiz sovet dövründə olduğu kimi, Azərbaycanın müstəqilliyi illərində də milli dəyərlərimizə sahib çıxmışdır. O, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən yüksək formasını milli dövlətçilikdə görürdü. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir. Dövlətçiliklə milliliyin birləşməsi bütün xalqların ən böyük arzusu və idealı olmuşdur. Bu gün biz müstəqil dövlətimizdə milli birlik dövrümüzü yaşayırıq ki, bunun da əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Milli birliyimizin gücü Vətən müharibəsində tarixi Zəfərimizin qazanılmasında özünü bir daha göstərdi.

Görkəmli dövlət xadimi deyirdi ki, milli dövlət bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən də milli dəyərlərin yaşadılması, təbliği və müstəqil inkişafının təmin olunması məqsədi daşıyır. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğuları ilə yanaşan ulu öndər deyirdi: ***"Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".***

Azərbaycan tarixən müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh və dostluq şəraitində yaşadığı məkan olub. Ona görə də bu gün sürətlə inkişaf edən, Şərqlə Qərb dəyərlərinin uğurlu sintezini nümayiş etdirməklə yeni nəsil dünya ölkələri sırasında bənzərsiz tolerantlıq və multikulturalizm örnəyini ortaya qoyan Azərbaycan dünyada humanizm prinsiplərinə sadiq ölkə kimi də tanınır. Hətta əsrlərboyu tarixi ərazilərimizə göz dikən, 30 il əzəli Qarabağ torpaqlarını işğal altında saxlayan monoetnik Ermənistana 44 günlük Vətən müharibəsindən sonra çoxmillətli Azərbaycanın sülh əlini uzatması buna ən bariz nümunədir. Prezident cənab İlham Əliyevin dediyi kimi: ***"Azərbaycan müstəqil dünyəvi dövlətdir. Konstitusiyaya görə din dövlətdən ayrıdır, ancaq din və dövlət həmişə birdir, bir yerdədir. Belə də olmalıdır. Çünki bizim amalımız da, istəyimiz də birdir. Biz istəyirik ki, Azərbaycan daha da güclü dövlətə çevrilsin, insanlar daha da yaxşı yaşasınlar, Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənsin... və uzunmüddətli inkişafımız uğurlu olsun".***

Dahi şəxsiyyət Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bunlarsız millət yoxdur. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir. ***"Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"***, – deyən ulu öndər Azərbaycançılığı milli ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə ehtiramla yanaşan ulu öndər hələ ötən əsrin 70-ci illərində müdrik şəxsiyyət kimi yaxşı başa düşürdü ki, aydın və dərk olunmuş milli ideologiya hər bir xalqın irəliyə doğru inkişafının yolgöstərəni və bələdçisidir.

Vətənpərvərliyə və dövlətçiliyə söykənən Azərbaycançılıq məhz ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin bərpası zamanı ölkəyə ikinci dəfə rəhbərliyə qayıdışından sonra milli bütövlüyümüzün təcəssümü olan milli ideologiya kimi formalaşdı, gerçəkləşdi və səfərbəredici fenomenə çevrildi. İndi demokratik, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu yolu ilə gedən Azərbaycan və bütün azərbaycanlılar ulu öndərin layiqli siyasi varisi ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında birləşərək milli Azərbaycançılıq və vətənpərvərliyin vəhdəti şəraitində müstəqilliyini daha da möhkəmləndirir.

Hər bir Azərbaycan vətəndaşı yaxşı bilir ki, Dövlət bayrağı millətin, müstəqil dövlətin müqəddəs rəmzi, xalqın mənəvi pasportu, milli mənliyi və qürur mənbəyidir. 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusu tərəfindən doğma Qarabağda aparılan əks-hücum əməliyyatları dövründə vətəndaşlarımızda bayraq sevgisi, işğaldan azad olunan Vətən torpaqlarında müqəddəs üçrəngli bayrağımızın qaldırılması halları əsl vətənpərvərlik nümunəsi kimi qəlbimizi fərəh hissi ilə doldurdu. Nə xoşbəxtik ki, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanda üçrəngli milli bayrağımıza, həmçinin qardaş Türkiyənin Dövlət bayrağına ümummilli sevginin şahidi olduq. Ölkənin işğaldan azad olunan yaşayış məntəqələri haqqında Ali Baş Komandanın xalqa müraciəti zamanı verdiyi müjdələri eşidən vətəndaşlarımız əllərində bayraqlarla yürüşlərə çıxdılar. Şəhər və kəndlərimiz üçrəngli bayraqlarla bəzədildi. İftixar etməli haldır ki, xalqımızda bayrağa sevginin, məhəbbətin formalaşmasında ölkənin hər yerində, eləcə də muxtar respublikamızda Dövlət bayrağı meydanlarının yaradılması mühüm rol oynamış, vətəndaşlarımızda vətənpərvərlik duyğularının formalaşmasına güclü təkan vermişdir.

Ümummilli liderimizin siyasi varisi kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev milli dəyərlərə dövlət səviyyəsində çox böyük diqqət və qayğı göstərir. Hər bir məsələdə ulu öndərin ideyalarını meyar kimi görən ölkə başçısının milli dəyərlərin qorunması, inkişaf etdirilərək gələcək nəsillərə çatdırılması ilə bağlı siyasəti də bu baxımdan çağdaş dövrün reallıqları ilə şərtlənir. Bu gün dövlət milli dəyərlərimizin qarantına çevrilmişdir. Ölkə başçısı xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir.

Ulu öndərimizin milli dəyərlərin yaşadılması istiqamətindəki siyasi fəaliyyəti hər zaman aktualdır və bu siyasət Azərbaycan dövlətçiliyinin ən ümdə vəzifələrindən biridir. Bu siyasət Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Azərbaycanın siyasi-iqtisadi və sosial inkişafına öz layiqli töhfələrini vermiş muxtar respublikamızda milli dəyərlərə böyük diqqət, qayğı və hörmət göstərilir. Milli dəyərlərimizin, milli tariximizin, ədəbiyyatımızın, mədəniyyətimizin və incəsənətimizin, adət-ənənələrimizin qorunması, zənginləşdirilməsi həmişə diqqət mərkəzində olmuşdur. Milli dəyərlərə hörmət və ehtiramla yanaşma, bu dəyərlərin elmi baxımdan öyrənilməsi, təbliğ edilməsi istiqamətində aparılan məqsədyönlü siyasət böyük nailiyyətlərin qazanılmasına şərait yaratmışdır. Bu gün muxtar respublikamızda milli və mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən tədbirlər xalqımızın bu dəyərlərə sadiqliyinin, ulu öndərin müqəddəs irsinə dərin hörmətin təzahürüdür. Bu il martın 29-da Naxçıvan Muxtar Respublikasında dini-mənəvi dəyərlər sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Mənəvi dəyərlər güclü dövlətçilik, sülh və əmin-amanlıq olan yerdə formalaşır. O cəmiyyət sağlamdır ki, orada mənəvi dəyərlərə sahiblik vardır".***

Bu gün dahi şəxsiyyət Heydər Əliyevin yaratdığı müasir Azərbaycan ümummilli liderimizin siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. Ölkəmiz iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə böyük uğurlara imza atır. Azərbaycan mötəbər beynəlxalq tədbirlərə, idman yarışlarına, forumlara ev sahibliyi edir. Bütün regional layihələrin təşəbbüskarı və ya iştirakçısı olan ölkəmiz Prezident cənab İlham Əliyevin həyata keçirdiyi strateji inkişaf kursunun uğurları sayəsində bu gün çağdaş tarixinin intibah mərhələsinə qədəm qoymuş, müstəqil dövlətimiz iqtisadi inkişaf potensialına görə lider ölkəyə çevrilmişdir.

30 ilə yaxın müharibə şəraitində olmuş Azərbaycan bu gün tarixin ən möhtəşəm dövrünü yaşayır. İşğaldan azad edilmiş torpaqlarımızda bərpa və quruculuq işləri həyata keçirilir, Böyük Qayıdışın tezləşdirilməsi üçün zəruri addımlar atılır. Zəfərimiz milli qürurumuzu, kimliyimizi özümüzə qaytarmaqla bizi sabaha daha böyük inamla addımlamağa səslədi. "Dəmir yumruq" dosta qürur, düşmənə gözdağı oldu. Beləliklə, Ali Baş Komandan cənab İlham Əliyev həm siyasi arenada, həm də döyüş meydanında zəfər qazanan, Azərbaycan torpaqlarını 30 il sürən işğaldan 44 günə azad edən, ərazi bütövlüyümüzü bərpa edən Böyük Sərkərdə kimi tarixə düşdü. Yeni tarix yazıldı, Azərbaycanda yeni mərhələ başladı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycanın Zəfər və qəhrəmanlıq simvoluna çevrildi.

*Bu gün Azərbaycan gənci bu reallıqlar fonunda gələcəyə daha böyük inamla addımlayır. Bu dəyərlərin içərisində ən ümdəsi Vətən və əsrlərboyu formalaşmış, qarşılıqlı hörmət və etimada əsaslanan milli və mənəvi dəyərlərdir. Məhz bu mənəvi dəyərlər bizim Vətənimiz və milli dövlətçiliyimiz naminə birliyimizi möhkəmləndirir və gələcəyə gedən yolumuza işıq tutur.*

**Qızıltac ŞAHBAZOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti,***
***Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

## 26 gənc kadr məktəbəqədər təhsil müəssisələrində işlə təmin olunub

*Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən məktəbəqədər təhsil müəssisələrinə keçirilən imtahanlarda müvafiq keçid balını toplayaraq yeni işə qəbul olunan gənc kadrlarla görüş keçirilib.*



Görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov bildirib ki, bu gün muxtar respublikada təhsilin bütün sahələrinə dövlətimiz tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir. Bunun ifadəsidir ki, muxtar respublikada fəaliyyət göstərən 19 məktəbəqədər təhsil müəssisəsi üçün binalar tikilərək və yaxud yenidən qurularaq istifadəyə verilib, həmin ünvanlarda uşaqların təlim-tərbiyəsi üçün hərtərəfli şərait yaradılıb.

Nazir qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2021-ci il 22 dekabr tarixli Sərəncamına əsasən yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilib. Sərəncamın icrası məqsədilə nazirlikdə bu sahə ilə bağlı sektor yaradılıb. Təhsil müəssisələrinə iki mindən artıq dərs vəsaiti paylanılıb.

Diqqətə çatdırılıb ki, məktəbəqədər təhsil müəssisələrində çalışan sertifikatı olmayan 44 dayə, 39 aşpaz, 3 dərzi, 2 qazanxana maşinisti və 28 gözətçi olmaqla, ümumilikdə, 116 nəfər müvafiq peşə kurslarına cəlb olunub və sertifikatla təmin edilib.

Bildirilib ki, məktəbəqədər təhsil müəssisələrində kadr potensialının formalaşdırılması üçün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli Qərarı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil, məktəbəqədər təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"na uyğun olaraq müsabiqə keçirilib. Müsabiqəyə, ümumilikdə, 43 vakant vəzifə çıxarılıb. Test mərhələsində ən yüksək nəticə göstərən 19 tərbiyəçi-müəllim, test mərhələsi ilə yanaşı, ikinci – qabiliyyət və klinik tapşırıq mərhələsində yüksək nəticə göstərən 6 musiqi rəhbəri və 1 tibb bacısı olmaqla, ümumilikdə, 26 kadr müvafiq vəzifələrə təyin olunub.

Təhsil naziri gənc kadrlara yeni işə təyin olunmaları münasibətilə təbriklərini çatdırıb, onlara gələcəyimiz olan uşaqların düzgün tərbiyə edilməsi, məktəbə hazırlanmasına diqqətin artırılması ilə bağlı səylə çalışmalarını tövsiyə edib.

Tədbirdə Naxçıvan Şəhər Təhsil Şöbəsinin metodisti Aynur Əhmədova və Naxçıvan şəhər 8 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçi-müəllimi Xavər Abbasova çıxış edərək muxtar respublikada gənc kadrlara göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Tədbirin yekununda təhsil naziri yeni işə qəbul olunan gənc kadrlara seminarı uğurla başa vurduqlarına görə sertifikatlar təqdim edib.

Sonra məktəbəqədər təhsil müəssisələrinin məktəbə hazırlıq qrupları üçün 3 cilddə, 3 mindən artıq dərslik verilib.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

## Folklorumuza tükənməz sevgi



Ömrüboyu Azərbaycan ziyalılarının qayğısını çəkən, ədəbiyyatımızı, mədəniyyətimizi, incəsənətimizi böyük övlad sevgisi ilə yorulmadan təbliğ edən ümummilli liderimiz Heydər Əliyev 1969-cu ildə siyasi hakimiyyətə gəlişi bütün sahələrdə olduğu kimi, ədəbiyyatımızda, mədəniyyətimizdə, folklorumuzda da böyük uğurların qazanılmasına gətirib çıxardı. Ədəbiyyatımızla yanaşı, memarlıq, xalçaçılıq, xalq musiqisi, folklor və etnoqrafiya kimi müxtəlif istiqamətləri birləşdirən milli-mənəvi dəyərlərimiz də özünün çiçəklənmə dövrünü yaşamağa başladı. Ulu öndərimiz Heydər Əliyev ədəbiyyatımızı milli sərvətimiz kimi dəyərləndirərək demişdir: ***"Ədəbiyyatımız bizim böyük milli sərvətimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm. Bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm".***

Ötən əsrin 70-80-ci illəri, eləcə də müstəqillik illəri Azərbaycan ədəbiyyatının və mədəniyyətinin, iqtisadiyyatının, təhsil və səhiyyəsinin, bir sözlə, Azərbaycanın sürətli inkişaf dövrü kimi tarixin yaddaşına həkk olunub. Görkəmli dövlət xadiminin milli-mənəvi irsə böyük qayğısının nəticəsi idi ki, klassik şairlərimizin əsərlərinin çapı, təbliği ilə yanaşı, şifahi xalq ədəbiyyatı nümunələrimiz də unudulmadı. Folklor nümunələrinə göstərilən diqqət və qayğı həm də xalqımızın özünü tanıması, özünə qayıdışı kimi dəyərləndirilməlidir. Bir vaxtlar dilimizdə yasağa çevrilən "Dədə Qorqud", "Oğuz", "Oğuz yurdu", "Ozan", "Türk mədəniyyəti", "Qan yaddaşı" anlayışları geniş surətdə işlənməyə başladı. Tarix-diyarşünaslıq muzeylərimizin bütün rayonlarda fəaliyyətə başlaması, folklor qruplarının, "Aşıq Pəri məclisi"nin, "İrs", "Gülüstan", "Yallı" və sair xalq kollektivlərinin yaradılması, "Bulaq", "Ozan" verilişlərinin açılması, saz bayramlarının, folklor festivallarının keçirilməsi milli kökə, milli dəyərlərə qayıdışın bariz ifadəsinə çevrildi.

Klassik şair və yazıçılarımızın yubileylərinin keçirilməsi ilə yanaşı, folklor tədqiqatçısı olan alimlərimizin, qüdrətli aşıqlarımızın yubileylərinin keçirilməsi də yaddan çıxmadı, unudulmadı. Milli varlığımızın tərcümanı olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin YUNESKO tərəfindən dünya miqyasında keçirilməsi təşəbbüsünü də Azərbaycan Respublikası adından ulu öndər Heydər Əliyev qaldırdı. YUNESKO yubileylə bağlı təklifi qəbul etdi. Yubileylə bağlı hazırlıq işləri görüldü. Dastanla bağlı elmi kitablar yazıldı. Xatırladaq ki, elə 70-ci illərdə Xalq yazıçısı Anarın ssenarisi əsasında çəkilən "Dədə Qorqud" filminin xeyir-duasını da bu dahi şəxsiyyət vermişdir.

2000-ci il aprel ayının 10-da "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi Bakı şəhərində təntənə ilə qeyd olundu. Həmin zirvə toplantısında Heydər Əliyev demişdir: ***"Azərbaycanda "Kitabi-Dədə Qorqud" irsinin öyrənilməsi, tədqiq edilməsi, təbliğ olunması sahəsində böyük işlər görülmüş və bunlar dastanı bizim xalqımıza, bütün Türk dünyasına, türkdilli xalqlara yenidən tanıtmış və onun nə qədər zəngin sərvət olduğunu bütün dünyaya nümayiş etdirmişdir".***



AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli bu dastanı "Ata kitabı"mız adlandıraraq yazır: "Azərbaycan Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında imzaladığı Fərman ulu Ata kitabımızın yenidən araşdırılması, beynəlxalq səviyyədə məqsədyönlü şəkildə təbliği, dünya dillərinə tərcümə olunması, yeni nəşrlərin meydana çıxması baxımından geniş imkanlar açır.

Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Aşıq Ələsgərin 150 illik (1972), Aşıq Alının 180 illik (1981) yubileyləri böyük təntənə ilə qeyd olunmuşdur. Aşıq Ələsgərin 1972-ci ildə 150 illik yubileyi Bakı ilə yanaşı, Moskvada da keçirilmişdir.

El içərisindən çıxmış bir aşığın yubileyinin Moskvada qeyd olunması həmin dövr üçün böyük nailiyyət idi. Həmin tədbirə Sovetlər Birliyinin bütün respublikalarından söz-sənət adamlarının Kremlin Qurultaylar Sarayına toplaşması, əslində, Azərbaycan saz-söz sənətinin qüdrətini göstərirdi. 1996-cı ildə Aşıq Ələsgərin 175 illik yubileyinin keçirilməsi ilə bağlı yeni Sərəncam imzalandı. Aşıq Ələsgərin əsərləri yenidən nəşr olundu. 2001-ci ildə isə Aşıq Ələsgərin 180 illik yubileyi keçirildi.

1981-ci ildə Aşıq Alının 180 illiyi görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə qeyd olundu, Aşıq Alının şeirləri ayrıca kitab şəklində oxuculara çatdırıldı. Ötən əsrin 70-80-ci illərində aşıqlardan Abbas Tufarqanlının, Sarı Aşığın, Dilqəmin, Xəstə Qasımın, Hüseyn Bozalqanlının, Aşıq Hüseyn Cavanın və başqalarının şeirləri toplanıldı, kitabları çap olundu. Həmin dövrdə istedadlı el sənətkarlarının yaradıcılıq və ifaçılıq sahəsində qazandığı böyük uğurlar da məhz ümummilli liderin adı ilə bağlıdır. Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir Qocayev, Aşıq Şakir Hacıyev, Aşıq Əkbər Cəfərov, Aşıq Ədalət Nəsibov, Aşıq Pənah Pənahov və Aşıq İmran Həsənov "Əməkdar incəsənət xadimi", musiqi folklorunun bənzərsiz ifaçıları olan İzzətalı Zülfüqarov, Ələsgər Şəkili və Əli Kərimov isə "Azərbaycanın Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görüldülər. Müstəqillik illərində də bu ənənə davam etdirildi. Ədalət Nəsibov, İsfəndiyar Rüstəmov kimi qocaman ustadlara Prezident təqaüdünün verilməsi, Aşıq Əhliman Rəhimov və Ədalət Dəlidağlının "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülməsi dediklərimizə əyani sübutdur.

Bu gün Azərbaycanın ayrı-ayrı rayonlarında musiqi məktəblərində saz dərnəklərinin fəaliyyət göstərməsi ənənəsi də müstəqillik illərində ulu öndərin saza-sözə dəyərinin nəticəsi kimi qiymətləndirilməlidir. Saz-söz bayramlarının təşkili, dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq tədbirlərdə Azərbaycan aşıqlarının, folklor qruplarının çıxışları bir daha sübut edir ki, bu gün Azərbaycan folkloru dünya səhnələrində də yol tapa bilib.

Ümummilli liderimiz Heydər Əliyev təkcə Azərbaycan folklorunu deyil, eləcə də türk xalqlarının qədim dastanlarını, klassik şairlərini, el sənətkarlarını böyük məhəbbətlə sevir və onların yubiley tədbirlərində də iştirak edirdi. Dahi şəxsiyyət Heydər Əliyev böyük şəxsiyyət kimi elə arxalanmış, ana dilimizi ən güclü silah saymış, ədəbiyyatımızı, folklorumuzu sevə-sevə təbliğ etmiş, xalqın gücünə arxalanaraq zirvələr fəth etmişdir. Tarixdə xalqa, onun milli dəyərlərinə, ədəbiyyatına bağlı Heydər Əliyev kimi ikinci bir dühа, şəxsiyyət tapmaq qeyri-mümkündür. Bu dahi şəxsiyyət xalqımızın fəxri olmaqla yanaşı, həm də dilimizin, folklorumuzun ən böyük qoruyucusu kimi tarixdə bundan sonra da yaşayacaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu ənənəni əzmlə davam etdirir. Dövlət başçısı 2007-ci ildə "Dədə Qorqud heykəli və Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi məqsədilə Sərəncam imzalayıb. 2013-cü ildə Bakıda Dədə Qorqud parkı salınıb və "Kitabi-Dədə Qorqud" abidəsi ucaldılıb. Abidənin açılış mərasimində Prezident cənab İlham Əliyev dastanı Azərbaycan xalqının milli sərvəti adlandıraraq qeyd edib ki, hər bir azərbaycanlı üçün əziz olan bu əsərdə xalqımızın keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunub. Həmin il Prezident cənab İlham Əliyev "Dədə Qorqud" dastanı əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi ilə bağlı Sərəncam imzalayıb. Azərbaycan Respublikasının Prezidentinin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 2015-ci il 20 fevral tarixli Sərəncamı bu dastanın xalqımız üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini bir daha dünyaya bəyan etməklə yanaşı, ulu öndərin ideyalarına sədaqətini bir daha nümayiş etdirdi.

Xüsusi olaraq qeyd edim ki, dahi şəxsiyyətin ideyalarının dönmədən həyata keçirildiyi muxtar respublikamızda xalq yaradıcılığının ən qədim sahələrindən biri olan folklorçuluq ənənələri yaşadılır. Bu istiqamətdə bir sıra işlər görülüb, folklor kollektivlərinin və xalq teatrlarının fəaliyyəti gücləndirilib, muxtar respublika ərazisində mövcud olan etnoqrafik və folklor materialları yenidən toplanılıb, sistemləşdirilib və əldə olunmuş materiallar əsasında "Naxçıvan folkloru antologiyası" kitabı nəşr edilib.

Ümummilli lider Heydər Əliyevin çıxışlarının birində dediyi: ***"Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir… Yallını qoruyub saxlayın. Bu, Naxçıvanın tacıdır"*** müdrik tövsiyəsi qədim diyarımızda bu xalq yaradıcılığı növünün qorunub yaşadılması baxımından müqəddəs dövlətçilik məramına çevrilib. "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti üçün hər cür şərait yaradılıb, ansamblın ifasından ibarət kompakt disklər hazırlanıb. Yallılar ilk dəfə nota köçürülüb, onun əsasında "Naxçıvan-Şərur el yallıları" kitabı nəşr olunub. 2018-ci il 26 noyabr-1 dekabr tarixlərdə Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində YUNESKO-nun Qeyri-maddi-mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilən Qərarla "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilib.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı bundan sonra da xalq yaradıcılığının qorunub saxlanılması və inkişaf etdirilməsi, folklorun sistemli şəkildə araşdırılması, təbliğ olunması, gələcək nəsillərə çatdırılması ümummilli liderimiz Heydər Əliyevin böyük ideyalarının gerçəkləşdirilməsi işində mühüm rol oynamaqdadır.*

**Sədaqət NEMƏTOVA**
*Naxçıvan Dövlət Universitetinin dosenti*

## Muxtar respublikada fiber-optik xətt çəkilişi davam etdirilir



Muxtar respublikamızda əhalinin, idarə, müəssisə və təşkilatların şəbəkəsindən istifadəsini daha da yaxşılaşdırmaq məqsədilə Naxçıvan şəhərində, muxtar respublikanın rayon mərkəzlərində və kəndlərində bir sıra qurumlara, o cümlədən yeni inşa olunan kənd mərkəzlərinə fiber-optik xətt çəkilişi davam etdirilir, istismar müddəti ərzində fiber-optik xətt sahəsində yaranmış nasazlıqların aradan qaldırılması istiqamətində operativ və təxirəsalınmaz tədbirlər həyata keçirilir. Belə tədbirlərin davamı olaraq Naxçıvan şəhərinin Əlincə məhəlləsində 10 nömrəli çoxmənzilli yaşayış binasında, İdris Məmmədov küçəsində 46 nömrəli çoxmənzilli yaşayış binasında, Nizami küçəsində 44 nömrəli çoxmənzilli yaşayış binasında, Heydər Əliyev prospektində olan 16 nömrəli çoxmənzilli yaşayış binasında və Xətai məhəlləsi döngə 9-da "Naxtel" mobil operatoruna məxsus yeni qurulan baza stansiyalarına fiber-optik kabellər çəkilib. Həmçinin müraciətlərə əsasən "Naxçıvan Sement Zavodu" və "Nəxşicahan Med" Məhdud Məsuliyyətli cəmiyyətlərinə, "Şərur broyler" quşçuluq təsərrüfatına, "Dan yeri" Alış-Veriş Mərkəzinə, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rayonlarda fəaliyyət göstərən Əhalinin Sosial Müdafiə mərkəzlərinə, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinə və Naxçıvan Muxtar Respublika Stadionunda zəruri texniki obyektlərə fiber-optik xətt çəkilişi həyata keçirilib. "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin valyutadəyişmə məntəqələrində isə zəruri avadanlıqlar quraşdırmaqla fiber-optik xətt vasitəsilə bankın ümumi sisteminə qoşulması təmin edilib.

Bunlarla yanaşı, Culfa rayonunun Ərəfsə kəndində fiber-optik xətlərdə yaranmış nasazlıqlarla bağlı olaraq yenilənmə işləri görülüb. Yeni dəmir rabitə dirəkləri basdırılıb, 380 metr məsafədə yeni fiber-optik xətlər və 400 metrə yaxın müxtəlif tutumlu kabellər çəkilib. Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyə isə fiber-optik xətt çəkilişi məqsədilə zəruri tədbirlər görülməkdədir.

Qeyd edək ki, cari ilin 8 ayı ərzində fiber-optik xətlər üzərindən təmin edilən GPON (Gigabit Passive Optical Network – Gigabit tutumlu Passiv Optik Şəbəkə) texnologiyası əsasında Naxçıvan şəhərində həyata keçirilən "Evədək optika" layihəsi çərçivəsində 19 fərdi mənzilə fiber-optik xətlər çəkilib, zəruri avadanlıqlar quraşdırılıb.

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

# Heydər Əliyev siyasətinin təntənəsi

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** ***Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu məni çox sevindirir. Çünki bu, Heydər Əliyev siyasətinin təntənəsidir.***




















## Azərbaycanın çimərlik güləşi tarixində naxçıvanlı imzası

*Rumıniyanın Konstansa şəhərində çimərlik güləşi üzrə 17 yaşadək olan idmançıların dünya çempionatı keçirilib.*

Baş məşqçi Oyan Nəzəriani və məşqçi Ağahüseyn Mustafayevin rəhbərliyi altında iştirak edən milli komandamızın güləşçiləri tarixi nəticəyə imza atıblar. Təmsilçilərimiz Hüseyn Sevdimov (50 kiloqram) Ziya Göyüşov (60 kiloqram) Vüsal Əliyev (70 kiloqram) Anar Cəfərli (80 kiloqram) final görüşlərini də qələbə ilə bitirərək dünya çempionu olublar. Bu nəticələr sayəsində komanda hesabında Moldova və Fransanı geridə qoyaraq birinci olan Azərbaycan millisi əsas mükafatla – kubokla təltif olunub.



Ölkəmizə 70 kiloqram çəki dərəcəsində qızıl medal qazandıran idmançı Vüsal Əliyev Naxçıvan Güləş Federasiyasının yetirməsidir. Vüsal ilk 3 raundda Yunanıstan, Rumıniya və Moldova güləşçiləri ilə mübarizədən qalib ayrılaraq yarımfinala adlayıb. Finala vəsiqə uğrunda bolqarıstanlı Kaloyan Atanasovu məğlub edən idmançımız həlledici görüşdə yunan İlias Rafail Karnavasla üz-üzə gəlib. İdmançımız ilk görüşündə məğlub etdiyi rəqibini növbəti dəfə məyus edərək qızıl medala sahib olub.

Məlumat üçün bildirək ki, bu ilin iyul ayında Yunanıstanda keçirilən çimərlik güləşi üzrə Avropa çempionatında Vüsal Əliyev qızıl, qardaşı Hüseyn isə gümüş medala layiq görülüblər. Hər ikisi 2013-2017-ci illərdə Naxçıvan Güləş Federasiyasının Şərur rayon bölməsində məşqçi-müəllimlər Barı Əliyev və mərhum Ayaz Bağırovun rəhbərliyi ilə keçirilən məşqlərdə iştirak ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Hacıyev Yaşar Fazil oğlunun adına 11.07.2016-cı il tarixdə verilmiş 0900154392 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 778